

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 170 (24.307)

16 sentyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

Qiyməti 30 qəpik

## Naxçıvanda Bilik Günü qeyd olunub

Sentyabrın 15-də – Bilik Günündə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Dövlət Universitetində olub, keçirilən tədbirlərdə iştirak edib.

Səlahiyyətli nümayəndə əvvəlcə Tibb fakültəsinin fəaliyyəti ilə maraqlanıb, fakültənin fitoterapiya, histologiya, anatomiya, əczaçılıq simulyasiya və stomatoloji simulyasiya kabinələri, patologiya, əczaçılıq, kimya, fiziologiya və stomatoloji-texniki laboratoriyaları ilə tanış olub.

Səlahiyyətli nümayəndə praktik tədris prosesini izləyib, yeni tədris ili münasibətilə təbriklərini çatdırıb, tələbələrin peşəkar tibbi kadrlar kimi formalaşacaqlarına əminliyini bildirib, tədrisdə uğurlar arzulayıb.

Sonra Tibb fakültəsinin birinci kurs tələbələri ilə Bilik Günü münasibətilə görüş keçirilib.



Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tələbə adını qazanan gəncləri təbrik edib, kollektivə uğurlu tədris ili arzulayıb.





Qeyd edib ki, Prezident cənab İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası nəticəsində muxtar respublikada genişmiqyaslı infrastruktur quruculuğu layihələri reallaşdırılacaq, elm və təhsil müəssisələri tikilib istifadəyə veriləcək. Çünki bu gün dövlətimiz təhsilin inkişafını birbaşa sosial öhdəlik kimi qarşıya məqsəd qoyub. Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə bu istiqamətdə hər il geniş layihələr icra olunur.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, ötən dövrdə Naxçıvanda yeni məktəb və tədris binaları tikilsə də, müasir konseptlərə cavab vermir. Hətta bir sıra tədris ocaqlarının inşası zamanı ciddi nöqsanlara yol verildiyindən istismara yararsız vəziyyətdə olduğu müəyyənləşdirilib və bununla bağlı işlər görülür. Qısa zamanda sözügedən Dövlət Proqramı əsasında yeni təhsil infrastrukturları reallaşdırılacaq. Bunlardan biri də Naxçıvan Dövlət Universitetinin ikinci tədris kampusu olacaq. Universitetin Tibb fakültəsinə aid olacaq yeni kampus şəhərin ən gözəl guşələrindən birində inşa olunacaq və tibbə dair bütün müasir təchizatla təmin olunacaq. Həmçinin universitet ərazisindəki tədris korpusları yenilənəcək.



Universitetin son illərdəki uğurlu əməkdaşlıq əlaqələrindən də danışan səlahiyyətli nümayəndə bildirib ki, qabaqcıl universitetlərlə ikili diplom layihələrinin reallaşdırılması uğurlu addımlardır. Dünya universitetləri və digər beynəlxalq qurumlarla bu cür faydalı əməkdaşlıqlar qısa müddətdə Naxçıvan Dövlət Universitetini dünyanın qabaqcıl ali təhsil ocaqlarından birinə çevirəcək. Bu əlaqələrin qurulmasında tələbələrin xarici dil biliklərinə yiyələnməsi müasir dövrün tələbinə uyğun olaraq mütləq xarakter daşıyır. Buna görə də bu ildən ingilisdilli tibb ixtisasının fəaliyyətə başlaması, eləcə də Universitetin Beynəlxalq Məktəbinin istifadəyə verilməsi yeni tədris ilinin mühüm yeniliklərindən biridir. Bütün bunlar beynəlxalq əməkdaşlıq əlaqələrini daha da genişləndirəcək, universitetin tədris imkanları Avropa, Amerika və dünyanın digər qabaqcıl təhsil sistemlərinə inteqrasiya ediləcək, tələbə-tədqiqatçılar üçün xarici ədəbiyyatlar daha əlçatan olacaq. Bir sözlə, digər istiqamətlərlə yanaşı, davamlı inkişaf yolunda olan Tibb ixtisası üzrə də hərtərəfli biliyə malik peşəkar kadrlar yetişəcək.

Fuad Nəcəfli tələbələrə yaradılan və yaradılacaq bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib və əminliyini bildirib ki, onlar gələcəyin peşəkar kadrları kimi ölkə və muxtar respublikanın səhiyyə ocaqlarında fəaliyyətlərini davam etdirəcəklər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qısa zaman ərzində görülən işləri universitet həyatında daha ümidverici mərhələnin başlanğıcı kimi dəyərləndirib. Rektor qeyd edib ki, beynəlxalq proqramların iştirakçısı olan Naxçıvan Dövlət Universiteti yeni model struktura malik qabaqcıl təhsil ocağına çevrilib. Ölkə üzrə iki böyük kampusu olacaq yeganə universitet beynəlxalq reytinqlərdə öz layiqli yerini tutub. SAT və IELTS mərkəzlərinin, ingilis dilində ixtisasların yaradılması universitetdə xarici dil mühiti yaradıb. Bütün bunların nəticəsində Naxçıvan Dövlət Universitetinə maraq daha da artıb. Təkcə yeni tədris ili ərəfəsində universitetin SAT mərkəzinə mindən artıq müraciət daxil olub. Eyni zamanda bu il müxtəlif xarici ölkələrdən 700-dən artıq əcnəbi tələbə təhsilini davam etdirmək üçün Naxçıvan Dövlət Universitetinə müraciət edib və onlardan 250-si qəbul olunub. Hazırda ali təhsil ocağında 19 ölkədən 1903 əcnəbi tələbə təhsilini davam etdirir.

Elbrus İsayev yeni layihələrin icrası çərçivəsində unikal ali təhsil ocağına çevrilən Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti adından dövlətimizə minnətdarlıq edib, göstərilən etimadı daha böyük uğurlarla doğruldacaqlarını bildirib, tələbələrə yeni tədris ilində uğurlar arzulayıb.

İngilisdilli Tibb ixtisası üzrə birinci kurs tələbəsi İnci Fərəcova deyib ki, ötən illərdə burada təhsil alan tələbələrin təəssüratları, universitetin reytinq sıralamalarında ön sıralarda yer alması, xüsusən də tədrisin ingilis dilində təşkili 657 balla bu ixtisası seçməsində önəmli rol oynayıb. O, tələbə yoldaşları adından əmin edib ki, təhsillərini uğurla başa vuracaq, xalqımıza və dövlətimizə layiq peşəkar tibbi kadr kimi formalaşacaqlar.



Görüşün ardınca Beynəlxalq münasibətlər fakültəsində "2023 Enactus Azərbaycan Milli Yarışı"nın qalibi olan və ölkəmizi Niderland krallığının Utrext şəhərində keçiriləcək dünya çempionatında təmsil edəcək universitet komandası ilə görüş olub. Səlahiyyətli nümayəndə bu uğura görə kollektivi təbrik edib, gənclərimizlə fəxr etdiyini bildirib. Fuad Nəcəfli gənclərə növbəti mərhələdə

Ardı 2-ci səhifədə



uğurlar arzulayıb, qısa zamanda onların layihələrinin istehsalata çevrilməsini və tibbi layihələrin icrasında fəal iştirakını arzulayıb, ENACTUS komandası ilə xatirə fotosu çəkdirib.

Ardınca səlahiyyətli nümayəndə universitet ərazisində Texnoparkın inşaat işləri ilə maraqlanıb. Məlumat verilib ki, tikintisi davam etdirilən texnoparkda energetika, gülkarlıq, tingçilik, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, üzümçülük, meliorasiya, arıçılıq sahələri, tədris otaqları və sərgi-biopark, texnopark binaları, eləcə də nəbatat bağı fəaliyyət göstərəcək.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli universitetin Pedaqoji fakültəsində yaradılan Texnologiya Mərkəzində də olub, "Tikiş texnologiyası", "Xalçaçılıq texnologiyası", "Toxuculuq texnologiyası", "Ağac və metal məmulatlarının hazırlanması texnologiyası", "Kulinariya" və digər kabinələrdə sərgilənən əl işləri ilə tanış olub.

Səlahiyyətli nümayəndəyə Ümummilli Lider Heydər Əliyevin muncuqla işlənmiş portreti hədiyyə edilib.

**"Şərq qapısı"**

## Məmməd Məmmədovun 80 illik yubileyi qeyd edilib





Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədovun 80 illik yubileyi qeyd olunub. Tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurasının nümayəndələri və muxtar respublikanın rayon Ağsaqqallar şuralarının sədrləri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, dahi şəxsiyyətə ehtiramlarını ifadə ediblər. Sonra Heydər Əliyev Muzeyində Ulu Öndərin mənalı həyatını və zəngin siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanışlıq olub.

"Naxçıvan Saray"da davam edən yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Tural Rzayev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurası Məmməd Məmmədovun sədrliyi ilə muxtar respublikada ahıl vətəndaşların ictimai-siyasi həyatda fəal iştirakına çalışan ictimai təşkilat kimi uğurlu fəaliyyət göstərir. Şura milli-mənəvi dəyərlərimizin qorunması, saflıq, ədalətlilik kimi yüksək insani keyfiyyətlərin cəmiyyətdə geniş yayılmasını özünün əsas vəzifələrindən hesab edir. Eyni zamanda gənc nəslin mənəvi və fiziki sağlamlığına, Vətənə sədaqət ruhunda tərbiyəsinə diqqət yetirən ağsaqqallar bu istiqamətdə də əzmkarlıq göstərir, tez-tez hərbi hissələrdə olur, əsgər və zabit heyəti ilə görüşlər keçirirlər.



Qeyd edilib ki, Məmməd Məmmədov 15 sentyabr 1943-cü ildə Qaraxanbəyli kəndində anadan olub. O, 1959-cu ildə Qaraxanbəyli kənd orta məktəbini bitirib, daha sonra təhsilini 1959-cu ildə Bakı şəhər fabrik-zavod təhsili məktəbində davam etdirib. 1966-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsinin qiyabi şöbəsinə qəbul olub, 1971-ci ildə həmin fakültədə təhsilini başa vurub. 1967-87-ci illərdə pedaqoji fəaliyyət göstərib. 1987-2001-ci illərdə müxtəlif vəzifələrdə çalışıb. 2001-2011-ci illərdə yenidən Qaraxanbəyli kənd tam orta məktəbində müəllim, təşkilatçı vəzifəsində işləyib, 26 dekabr 2017-ci il tarixdən Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədridir.

Vurğulanıb ki, Ümummilli Liderimiz Heydər Əliyev bütün ağsaqqalların xalqımız üçün hər zaman dəyərli olduğunu bildirib, onları daim yüksək qiymətləndirib. Ümummilli Liderimizin cəmiyyətimizin bu həssas təbəqəsinə göstərdiyi diqqət və qayğı hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Tural Rzayev Məmməd Məmmədovu 80 illik yubileyi münasibətilə təbrik edib, ona uzun ömür, cansağlığı, gənclərimiz üçün nümunə olan ömür yolunda və gələcək fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıb. Yubileylə əlaqədar ictimai-siyasi həyatda səmərəli fəaliyyətinə görə Məmməd Məmmədova Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanı təqdim olunub.

Yubiley tədbirində Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədr müavini Bayram Yusifov çıxış edərək Ümummilli Liderimiz Heydər Əliyevin ölkə ağsaqqallarına göstərdiyi yüksək diqqət və qayğıdan, bu sahədə gördüyü işlərdən bəhs edib, ölkəmizdə Ağsaqqallıq İnstitutunun formalaşmasından, əhəmiyyətindən, ağsaqqalların ictimai-siyasi həyatdakı rolundan danışıb.

Sonra Azərbaycan Respublikası Ağsaqqallar Şurası tərəfindən yubilyar Məmməd Məmmədova "Fəxri ağsaqqal" döş nişanı və qiymətli hədiyyələr təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov verilən yüksək qiymətə görə minnətdarlıq edərək bildirib ki, artıq 6 ildir, şuraya rəhbərlik edir. Hər zaman çalışıb ki, şuranın Nizamnaməsində göstərilən bütün bəndlər tamamilə yerinə yetirilsin. Məmməd Məmmədov Ümummilli Liderimiz Heydər Əliyevin yadigarı olan, 1995-ci ildə dahi şəxsiyyət tərəfindən yaradılan Ağsaqqallar Şurasının fəaliyyətinin bundan sonra da düzgün şəkildə qurulacağına, şuranın gənclərin vətənpərvərlik tərbiyəsinin artırılmasına böyük önəm verəcəyinə əminlik ifadə edib.

Sonra Naxçıvan Muxtar Respublikasının rayon ağsaqqallar şurası sədrlərinə yeni vəsiqələr təqdim olunub, digər çıxış edənlər yubilyar Məmməd Məmmədova təbriklərini çatdırıblar. Yubiley tədbiri çay süfrəsi arxasında davam edib.

**Nail ƏSGƏROV**

## Bilik Günü münasibətilə tədbirlər keçirilib

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsil siyasətinin uğurları muxtar respublikamızda da özünü bariz şəkildə təcəssüm etdirir. Belə ki, 2022-2023-cü tədris ili üzrə ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla, 3166 məzun bitirmiş, onlardan 2962-si, yaxud 94 faizi ali və orta ixtisas təhsili müəssisələrinə sənəd vermiş, onlardan 196-sı 500-700 intervalında bal toplamış, II ixtisas qrupunda ölkə üzrə ən yüksək nəticəni muxtar respublika məktəblisi göstərmişdir. 15 sentyabr – Bilik Günü də muxtar respublikanın ali və orta ümumtəhsil məktəblərində yeni nailiyyətlər sorağı, növbəti uğurlara əminlik ilə geniş qeyd olunub.*

"Naxçıvan" Universitetində bu münasibətlə keçirilən tədbirdə universitetin rektoru, dosent Anar Kazımov bildirib ki, ali təhsil ocağında təhsilin səviyyəsi, yaradılan şərait hər zaman diqqət mərkəzində saxlanılır. Qeyd edilib ki, əməkdaşlıq çərçivəsində artıq yeni tədris ilindən etibarən UNEC ilə də birgə tələbə mübadiləsinə start veriləcək. Yeni tədris ilində bu ali təhsil ocağının tələbələri də ADA Universitetində olduğu kimi, bir semestr ərzində UNEC-də də təhsil ala biləcəklər.

Tədbir tələbələrin ifasında maraqlı çıxışlarla yekunlaşıb.

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbirdə institutun rektoru Azad Novruzov qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən danışaraq əlamətdar gün münasibətilə tələbələri təbrik edib, təhsillərində onlara uğurlar arzulayıb.

Sonda Naxçıvan Müəllimlər İnstitutunun tələbə həyatını əks etdirən videoçarxlar nümayiş olunub.



Heydər Əliyev adına Hərbi Liseydə keçirilən tədbirdə Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himnimiz səsləndirilib. Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Bilik Günü münasibətilə zabit, müəllim və kursantları təbrik edib, kollektivə yeni tədris ilində uğurlar arzulayıb.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması dahi şəxsiyyətin ordu quruculuğu sahəsində misilsiz xidmətlərinin daha bir nümunəsidir. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvandakı filialının tam müstəqil fəaliyyət göstərməsi üçün Ümummilli Liderimizin dahi adını ölkədə ilk dəfə 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə bu təhsil ocağında əbədiləşdirdi.

General-polkovnik Kərəm Mustafayev hərbi təhsil müəssisəsində tədrisin keyfiyyətini daha da artırmaq, kursantları mənəvi-psixoloji cəhətdən hazırlıqlı yetişdirmək üçün ardıcıl tədbirlər görüldüyünü diqqətə çatdırıb. Əminlik ifadə olunub ki, pedaqoji kollektiv və kursantlar liseyin fəaliyyətinə göstərilən diqqət və qayğını əməli işləri ilə doğruldacaqlar.

Heydər Əliyev adına Hərbi Liseyin müəllimi Günel Əliyeva və kursant Məhəmməd Mustafayev çıxış edərək yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər. Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya medallar təqdim edilib, tribuna önündən təntənəli keçid olub.

Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayan kursantların hər birinə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş çantalar hədiyyə edilib. Tədbirdə kursant çantalarına baxış olub. Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev pedaqoji kollektivlə görüşüb, kursantların məişət şəraiti və keçirilən dərslərlə maraqlanıb.

Qeyd edək ki, ötən tədris ilini böyük uğurlarla başa vuran Naxçıvan Qarnizonu tam orta məktəbində də 15 Sentyabr Bilik Günü qeyd edilib. Tədbirdə ötən tədris ilində uğurlu nəticələr göstərmiş müəllim və şagirdlər mükafatlandırılıb.

Heydər Əliyev adına tam orta məktəbdə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək "Heydər Əliyev İli"ndə yeni tədris ilini Ümummilli Lider Heydər Əliyevin adını daşıyan məktəbdə qarşılamağın xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Ovni Muradov muxtar respublikanın 2022-2023-cü tədris ilində qazandığı uğurlardan ətraflı danışaraq bildirib ki, 2023-2024-cü tədris ilində Naxçıvan Muxtar Respublikasında orta məktəblərdə 52 mindən



artıq şagird təhsil alacaq, 4240 uşaq birinci sinfə gedəcək, 2423 uşaq isə məktəbəhazırlıq qruplarında tədrisə cəlb olunacaq. Bundan başqa, 3979 uşaq məktəbəqədər təhsil müəssisəsinə gedəcək.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri vəzifələrini müvəqqəti icra edən Gülxanım Orucova gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müəllimlərin danılmaz rolundan bəhs edib.

Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə bildirilib ki, 2022-2023-cü tədris ilində rayonun ümumtəhsil məktəblərini bitirən 524 məzundan 513-ü ali məktəblərə qəbul imtahanlarında iştirak edib. 224-ü ali məktəblərə qəbul olub.

Babək rayonunun Güznüt kənd tam orta məktəbində keçirilən tədbirdə qeyd olunub ki, ötən tədris ilində məzun olmuş 616 nəfərin



548-i ali və orta ixtisas məktəblərinə qəbul üçün sənəd verib.

Əkbər Ağayev adına Ordubad şəhər 3 nömrəli tam orta məktəbdə Bilik Günü münasibətilə keçirilən tədbirdə vurğulanıb ki, 2022-2023-cü tədris ilində Ordubad məktəblərinin məzunlarından 155-i ali, 30 nəfəri isə orta ixtisas təhsili müəssisələrinə qəbul olub, 17 nəfər 500-700 intervalında bal toplayıb.

Bilik Günü ilə bağlı Culfa şəhər 3 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə qeyd olunub ki, 2022-2023-cü tədris ilində rayon məktəblərini bitirən məzunlardan 160-ı ali təhsil, 58-i isə 11 illik bazadan orta ixtisas təhsili müəssisələrinə qəbul olub.

Kəngərli rayonunda Bilik Günü ilə bağlı keçirilən tədbirdə diqqətə çatdırılıb ki, ötən tədris ilində rayonun ümumi orta təhsil bazasından 258 məzun ali məktəbə sənəd verib, onlardan 106-sı, yəni 41,1 faizi qəbul olub.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə bildirilib ki, rayon üzrə 2022-2023-cü il tədris ilində 146 şagird məzun olub, abituriyentlərdən 83-ü ali məktəb, 17 nəfər isə orta ixtisas təhsili bazasından kollec tələbəsi adını qazanıb.

Sədərək rayonunun Sədərək kəndində keçirilən tədbirdə qeyd olunub ki, ötən tədris ilində rayonun ümumtəhsil məktəblərini 100 məzun bitirib. Onlardan 1-i "Qızıl" nişana layiq görülüb. Məzunlardan 78-i qəbul imtahanlarında iştirak edib, 49-u tələbə adını qazanıb. Abituriyentlərdən 5-i 500-dən yuxarı bal toplayıb.

Qeyd edək ki, yeni tədris ilində ümumtəhsil müəssisələrində ilk dərs "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunub.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 31-ci ildönümü silsilə tədbirlərlə qeyd olunub



Əlahiddə Ümumqoşun Ordunun bütün birləşmə və hissələrində keçirilən tədbirlərdə əvvəlcə Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Çıxışlar zamanı Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusunun dünyanın hər zaman inkişafda olan müzəffər orduları sırasında dayandığı vurğulanıb, 44 günlük Vətən müharibəsi ilə tariximizə Zəfər Gününü yazan ordumuzun şəxsi heyətinin daim yüksək döyüş hazırlığına malik olduğu qeyd edilib. Təbrik oxunduqdan sonra hərbi qulluqçulara müxtəlif medallar, vaxtından əvvəl və növbəti hərbi rütbələr, fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib.

Sonda şəxsi heyətin tirbuna önündən təntənəli keçidi olub.

## Andiçmə mərasimi keçirilib



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə qəbul edilən kursantların və ilkin hazırlıq kursunu başa vuran dinləyicilərin andiçmə mərasimi keçirilib.

Bu münasibətlə keçirilən mərasimdə əvvəlcə Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın ruhu bir dəqiqəlik sükutla yad edilib.

Sonra dinləyicilər Vətənin, xalqın, dövlətin yolunda canlarından belə keçməyə hazır olduqlarına söz verərək Polis andı içiblər.

**Xəbərlər şöbəsi**

## Qərbi Azərbaycanın tarixinə həsr edilmiş konfrans



*AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə "Xalqımızın qədim yurd yeri: Qərbi Azərbaycan" mövzusunda elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Bildirib ki, əsrlər öncə ermənilər əzəli ərazilərimizə məqsədli köçürülmüş, sonralar tarixi torpaqlarımız hesabına "ərazilərini" genişləndirmiş, öz məkrli niyyətlərini həyata keçirmək üçün xalqımıza qarşı kütləvi qırğınlar, soyqırımlar törətmiş, deportasiyaya məruz qoymuşlar. Havadarlarının dəstəyi ilə öz planlarını reallaşdıran ermənilər Qərbi Azərbaycanda 499 Azərbaycan kəndini dağıtmış, 704 kəndin türkmənşəli adını dəyişmiş, bölgəni süni şəkildə erməniləşməyə məruz qoymuşlar.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin soydaşlarımızın ata-baba yurdlarına qayıtmaları üçün apardığı uzaqgörən siyasət bu gün onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bölmə sədri ölkə başçısının 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşünü xatırladaraq bildirib ki, həmin tədbirdə Prezident cənab İlham Əliyev geniş nitq söyləmiş, həmin çıxış Qərbi Azərbaycana qayıdışın təməlini formalaşdırmış, geri dönüşün reallaşması üçün istiqamətləndirici amil olmuşdur. Alim Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının artıq hazırlandığını və bu istiqamətdə bir çox işlərin görüldüyünü deyib. Akademik Naxçıvanda Qərbi Azərbaycanın tarixi, etnoqrafiyası, toponimləri və folkloru, Qərbi azərbaycanlıların bu qədim diyarda məskunlaşması ilə bağlı çoxsaylı elmi-tədqiqat işlərinin aparılmasından da danışıb.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Göyçə-Dərələyəz elegiyası", institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov "Qərbi Azərbaycanın qayaüstü təsvirlərinin Naxçıvan paralelləri", aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, dosent Sara Hacıyeva "Qərbi Azərbaycanın qoç və qoyun heykəlli qəbirüstü abidələri", elmi işçi Aysel İsmayılova "Qərbi Azərbaycanın tarixi-memarlıq abidələrində erməni vandalizminin izləri" mövzularında məruzə ediblər.

Məruzələrdə Dərələyəz və Göyçə mahallarının əzəli Azərbaycan torpaqları olması faktına diqqət çəkilib, bölgənin tarixən türklərə məxsusluğu, buradakı türkmənşəli toponimlər, mövzu ilə bağlı tədqiqatlar diqqətə çatdırılıb.

Konfransa akademik İsmayıl Hacıyev yekun vurub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Milli-mədəni irsimizin əsasını təşkil edən musiqi sənəti inkişaf yolundadır

*Həyatda elə insanlar var ki, onlar qısa, ancaq bütövlükdə xalqının inkişafına, intibahına, azadlığına həsr olunmuş ömürləri ilə adlarını o xalqın tarixinə əbədilik yaza bilirlər. O insanlardan biri də dünya şöhrətli bəstəkar, musiqişünas, pedaqoq, tərcüməçi, publisist, ictimai xadim Üzeyir Hacıbəylidir. Üzeyir Hacıbəylinin anadan olmasının 110-cu ildönümündə Ulu Öndər Heydər Əliyev "Üzeyir musiqi gününün keçirilməsi haqqında" Fərman imzalamışdır. Fərmana uyğun olaraq hər il bəstəkarın doğum günü – 18 sentyabr Milli Musiqi Günü olaraq qeyd olunur, xatirəsi ehtiramla yad edilir.*

**Ulu Öndər Heydər ƏLİYEV:** ***Üzeyir Hacıbəyovun yaradıcılığı həmişə insanları vətənpərvərliyə dəvət edir. Biz bu gün də Üzeyir bəy Hacıbəyovun xatirəsini yad ediriksə, onun yaradıcılığını bir daha yüksək qiymətləndiririksə, bu yaradıcılığın ən yüksək nöqtəsi olan vətənpərvərlik hisslərini özümüzdə daha da artırmalıyıq, daha da inkişaf etdirməliyik. Özümüzü bu hissiyyatlarla gələcəyə hazırlamalıyıq.***

Üzeyir Hacıbəyli 138 il öncə mədəniyyət və mənəviyyat şəhərimiz olan Şuşada dünyaya gözlərini açmışdır. "Qafqazın Konservatoriyası" adlandırılan Şuşa mühiti, sazlı-sözlü aşıq məclisləri, muğam, poeziya gecələri gələcəyin böyük bəstəkarına ilham vermiş, bənzərsiz istedadını cilalamışdır. Hələ kiçik yaşlarından xalqının zəngin mədəni irsinə yaxından bələd olan bəstəkar təkcə mənimsəyib öyrənməmiş, həm də onları notun yaddaşına köçürüb əbədilik yaşamasını təmin etmişdir. Balaca olarkən Məhəmməd Füzulinin əsərindən götürülmüş, həvəskar aktyorlar tərəfindən səhnələşdirilmiş teatr əsəri dahi bəstəkarın dünyagörüşünə böyük təsir göstərmiş, sonralar mədəniyyət tariximizdə imza atdığı ilklərdən birinə çevrilmişdir.

Dahiyanə musiqi zəkası, iti zehni, fövqəladə intuisiya qabiliyyəti ilə seçilən Üzeyir Hacıbəyli əvvəlcə Şuşada, sonra Qori Müəllimlər Seminariyasında, Moskvada və Sankt-Peterburqda təhsil almışdır. O, müəllim kimi fəaliyyət göstərəndə də, müxtəlif mədəniyyət ocaqlarına rəhbərlik edəndə də ancaq Azərbaycan mətbuatının, teatrının, musiqisinin inkişafı üçün çalışmış, müstəsna xidmətlər göstərmişdir. 1908-ci ildə yazdığı "Leyli və Məcnun" əsəri ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuş, bir-birinin ardınca yazdığı "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla" muğam operaları, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları, marş, kantata, mahnı və romansları, kamera və xor üçün əsərləri ilə musiqi xəzinəmizi zənginləşdirmişdir. Xalq qəhrəmanlıq dastanının motivləri əsasında yazılan və bəstəkarın yaradıcılığının zirvəsi sayılan "Koroğlu" operası, Azərbaycanda musiqili komediyanın ilk nümunəsi olan "Ər və arvad" əsəri də Üzeyir bəy ömründən bizlərə qalan qiymətli incilər sırasındadır.

Dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyli həm də xalq musiqisinin nəzəri əsaslarını gələcək nəslə çatdırmaq kimi müqəddəs bir missiyanı çiyinlərinə qaldırmış və buna nail olmuşdur. 1945-ci ildə nəşr edilmiş






"Azərbaycan xalq musiqisinin əsasları" adlı əsəri Üzeyir Hacıbəylinin musiqişünas-alim olaraq mükəmməl fəaliyyətinin yadigarı kimi bu gün də musiqi dərsliyi kimi istifadə edilir. Dahi bəstəkar həm də Azərbaycan musiqi mədəniyyəti tarixində milli bəstəkarlıq məktəbinin özülünü qoymuş, milli kadrların yetişməsində əlindən gələni əsirgəməmişdir.

Üzeyir Hacıbəylinin həyat və fəaliyyətinin bütün mərhələlərində yalnız və yalnız xalqın mədəni inkişafı, onun müstəqilliyi, milli şüurun oyanışı və gələcək taleyi var idi. Korifey sənətkar böyük bir nəslin edə biləcəyi işi təkbaşına uğurla həyata keçirmiş, mədəniyyət tariximizdə bir sıra ilklərə imza atmışdır. Şərqdə ilk musiqili teatrın, ilk notlu xalq çalğı alətləri orkestrinin yaranması, Müslüm Maqomayevlə birgə ilk "Azərbaycan türk el nəğmələri" məcmuəsinin nəşr etdirilməsi də məhz o əvəzsiz insanın gərgin əməyinin nəticəsi idi. Üzeyir Hacıbəyli həm də Azərbaycan Dövlət Himninin bəstəkarıdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə nota alınan Dövlət Himni ölkəmiz müstəqillik qazandıqdan sonra yenidən xalqımızı milli birliyə, həmrəyliyə, Vətən uğrunda can verməyə, qan tökməyə səsləyirdi.

Azərbaycan mədəniyyətinin böyük himayədarı Ümummilli Lider Heydər Əliyev Üzeyir Hacıbəylinin şəxsiyyətini yüksək qiymətləndirir, mədəniyyət, incəsənətlə bağlı çıxışlarında dəfələrlə böyük bəstəkarın sənətinə, bənzərsiz musiqisinə vurğunluğunu dilə gətirirdi. Təsadüfi deyil ki, Ümummilli Lider Azərbaycanda siyasi hakimiyyətə gələndən sonra 1975-ci ildə dahi bəstəkarın Bakı şəhərində ev-muzeyi açılmışdır. Üzeyir Hacıbəylinin anadan olmasının 100 illik yubileyi böyük təntənə ilə keçirilmiş, UNESCO miqyasında qeyd edilmişdir.

Ulu Öndərin bütün sahələrdə uğurlu davamçısı olan Prezident cənab İlham Əliyevin həssas münasibəti sayəsində Üzeyir Hacıbəylinin irsi bu gün də hörmətlə yaşadılır və təbliğ olunur.



Vurğulamaq yerinə düşər ki, 2009-cu ildən etibarən Üzeyir Hacıbəylinin xatirəsinə ehtiram olaraq bəstəkarın doğum günündə yerli və xarici sənətçilərin iştirakı ilə ölkəmizdə Beynəlxalq Musiqi Festivalı keçirilir. Mədəniyyətimizin inkişafı və təbliği yolunda böyük fədakarlıq göstərən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə ölkəmizdə və xaricdə dahi bəstəkara həsr olunmuş böyük musiqi layihələri, tədbirlər reallaşır, onun mədəniyyət tariximizdə başlatdığı yol, milli ənənələr yaşadılır və təbliğ olunur. Bu il də ənənəyə sadiq olaraq sentyabrın 18-dən 28-dək ölkəmizdə Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Festival çərçivəsində Naxçıvan Dövlət Filarmoniyasının Simfonik Orkestri Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsert proqramı ilə çıxış edəcək.

Bu gün ölkəmizdə musiqi sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər il ölkəmizdə yeni musiqi məktəbləri inşa olunur, konsert salonları təmir edilir və yenidən qurulur, maddi-texniki bazaları gücləndirilir, milli musiqiçi kadrların yetişdirilməsi istiqamətində uğurlu layihələr həyata keçirilir, bu sahənin inkişafı üçün çalışan insanların əməyi yüksək qiymətləndirilir, müxtəlif fəxri adlara layiq görülür, sosial problemləri diqqətdə saxlanılır. Son illər beynəlxalq səviyyəli musiqi festivallarının keçirilməsi ölkəmizdə musiqi mədəniyyətinin inkişafından xəbər verir. "Qarabağ xanəndələri" albomunun, "Üzeyir Hacıbəyov Ensiklopediyası"nın və "Muğam Ensiklopediyası"nın nəşr olunması Azərbaycan muğamının, aşıq sənətinin, tar ifaçılığı sənətinin, kamançanın, Naxçıvanın ənənəvi qrup rəqsləri – Yallının (Köçəri, Tənzərə) UNESCO-nun müxtəlif siyahılarına daxil edilməsi isə qədim musiqi mədəniyyətimizə verilən qiymətin daha bir ifadəsidir.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Son illərdə Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti təmin edilmişdir. Həmçinin muxtar respublikada xalq musiqisinin, yallılarımızın, muğamlarımızın nota köçürülməsi, xalq yaradıcılığımızın bu sahələri haqqında kitab və monoqrafiyaların işıq üzü görməsi sistemli həyata keçirilir.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-ci il 5 iyun tarixdə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiqi haqqında Sərəncam imzalamışdır. Dövlət Proqramının icrası mədəniyyət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, mədəniyyət sahəsinin inkişafının təmin edilməsinə, milli-mənəvi dəyərlərə bağlı, istedadlı gənclərin yetişib püxtələşməsinə öz töhfəsini verəcək.

Artıq 3 ildir ki, Milli Musiqi Günü xüsusi ab-hava ilə, qələbə ovqatında qeyd olunur. "Dəmir yumruq" ətrafında birləşən xalqımız 44 günlük Vətən müharibəsində Şanlı Zəfərə imza atdı, müzəffər Ordumuz 30 il erməni tapdağında qalan torpaqlarımızı, o cümlədən Üzeyirin vətənini – Şuşanı azad etdi. Qələbədən sonra kərpic-kərpic qurulan Qarabağda dahi bəstəkarın büstü ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə yenidən ucaldıldı, ölümsüz bəstəkarın əsərləri illər sonra da yenidən doğma yurdunda səsləndi, Şuşanın dağlarına bəstəkarın təkrarsız nəğmələri hopdu. Qarabağ bu gün böyük mədəniyyət tədbirlərinə – "Xarıbülbül" Musiqi Festivalına, Vaqif Poeziya Günlərinə ev sahibliyi edir, şəhərlərimizin işğaldan azad olunduğu günlər bayram ovqatında qeyd olunur. Belə möhtəşəm tədbirlərdə xalqımızın zəngin xəzinəsi, mənəvi sərvəti sayılan Üzeyir Hacıbəylinin əsərləri təkrar-təkrar ifa edilir, alqışlarla qarşılanır.

Dahi Üzeyir Hacıbəyli hələ 1910-cu ildə "Həqiqət" qəzetində belə yazırdı: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə, bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə, öləndən sonra da camaata mənfəət verirlər". Bu fikirləri bu gün böyük məmnuniyyətlə elə dahi bəstəkarın özünə şamil etmək olar. Üzeyir Hacıbəyli Azərbaycan musiqisini milli ruhda yenidən yoğurub elə bir mərtəbəyə yüksəldib ki, o ucalıqdan boylananda hər zaman bəstəkarın bənzərsiz sənəti görünəcək.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Şeiriyyətimizin Vətən eşqi ilə çağlayan Şəhri – Yarı



*Hisslər bu qədərmi təmiz, bu qədərmi məna yükü ilə dolub-daşar? Azərbaycanın memarı və qurucusu Heydər Əliyev şeirə, sənətə ən ülvi hisslərlə dəyər verərək müsahibələrinin birində “sevdiyiniz şair” sualına “Şəhriyar”, – deyə cavab verir. Ulu Öndərin Şəhriyar irsinə böyük rəğbət və diqqət göstərməsi, şairin 90 illiyində imzaladığı Sərəncam ona dövlət səviyyəsində ehtiramın ən mötəbər göstəricisi idi. Buna görə də “Heydər Əliyev İli”ndə ustad Şəhriyarı xatırlamamaq böyük qəbahət olardı.*

Ömrünü qara günlərlə keçirib ah-vay edən, sonsuz arzularını, saysız diləklərini baxışlarında söndürüb kiçik tabutuna sığdırıb arxasında, onu sevən, onu hiss edən, çiyinlərdə Şəhriyar yükünü daşıyan bir cahan qoyub getdi. O cahan ki gündüzün yadigarını gecəyə qataraq hər gecə ulduz sayıb Ayı gözləyir, fəqət, sinəsindən son nəfəsini çıxarıb atan Ay məzarını şeirləri ilə ömürlük ürəyimizdə qazıbmış.

Səndən keçən dünya bizə nə qədər yad, nə qədər özgədir artıq. Sənə nağıl danışaq: “Qurd keçinin Şəngülümünü yenə yesin”, külək qalxsın qapı-bacanı yenə döysün, sən də yenidən uşaq ol, uzaq düşdüyün elinə qayıt, gözümüzdən yaşlar axdıqca sənə çıraq olaq, yol açaq! Dirildib Aşıq Rüstəmin sazını dilləndirək, sənin o yatmış bəxtini, o pərişan qəlbini, bəlkə, beləcə, oyada bilək... Heydərbabadan haray salıb, Arazın göz yaşlarını qurudaq, sənə ömür salaq! İçində yaşayan bir ölünü – Süreyyanı dirildib çağıraq Turi-təcəllayə, sən də Musa olub o uzun səfərdən qayıt bizə. Tehrana qeyrət, Təbrizə vəfa olaq, Səmədlərdən, Rüstəmlərdən, Babillərin nəfəsindən nəfəs gətirib, ölü bir cana nəfəs olaq... Yazılmayan, “Yar-qasidi”, oxunmayan “Behcətabad xatirəsi” olaq, bəlkə, əllərin qələm, özün ilham olaraq qayıdasan bu dünyanın sənsiz qalan, səssiz qalan zülmətinə... Səssiz qalmış bu dünyanın zülmətinə səslənirik?! Hanı günbəgün qəddini əyib yaşadaraq öldürdüyün, indi isə öldürüb yaşatdığın Şəhriyar?! Susur hər kəs, hər şəhər... Susur sanki acıdan yoğrulduğun, Nişapur, ah-nalənlə nəfəs alan Tehran! Təkcə Təbriz danışır, indi hər parçası, hər daşı, çünki hicrana bürünüb, çünki hayküründə sızıltısının laylasını oxuyaraq, əbədi yatırtdığı Şəhriyarı hifz edir, Şəhriyara qucaq olub. Artıq o, əbədiyyət məkanında ölümün heçlik rəmzinə çevrilib. Yavaş-yavaş sakitləşir, danışan hər şey, təkcə yaşadığın məhəllənin kimsəsiz küçələri danışır, gəzərkən hər tinində can verdiyin, sənə sirdaş olub yumşalan divarların, vida astanasında gözlərindən mil çəkdiyin daşların dilə gəlir indi, misra-misra sən qışqırır, bənd-bənd evinin sənsizliyini qoruyur. Səs-səsə verən əşyaların çiliklənib söz tökür, otağının sən qoxan hər küncü əl-ələ verib, səni gözləyir, iz buraxdığın hər əşyan üzərində tozlanmış böyük bir xatirədən asılır, hər gün bir az da kimsəsizləşib, toxunulmaz, sınmaz olur...

Qardaş nə qədər yadlaşsa da, yaddan çıxmaz, ustad. Süsənlərə, sünbüllərə sarınan könlün Vahidin, Qabilin, Sabirin, Bülbülün şair ruhuna ruh, Rahimin, Süleymanın, Bəxtiyarın, Gülgünün, Osmanın, Nəbinin, Rəsulun Araz dolu həsrətli baxışına göz oldu. Heydərbaba sənsiz yetim, oğulsuzdur artıq. “Çoban qaytar quzunu” oxuyan yoxdur, ətəyində hər yaz bitən novruzgülü, qarçiçəyi sənsiz solur, itir-batır. Kəkliklərin səni tapmır, qanadı qırıq halda uçub köç edir, ustad!

İndi qırıq qəlblərin təsəlliyə, nakam sevgilərin çarəyə, yarım qalmış canların tamamlanmağa, Vətən həsrəti ilə yanıb tutuşanların Vətənə ehtiyacı olanda, Şəhriyar deyə-deyə, keçdiyin küçələrin ahından nəfəslərinə qataraq sənə gəlir, sərgərdan olmuş adamlar kimi yalın ayaqlarla qaçıb sənin keçdiyin yollara sığınır, addım-addım ayaq izlərindən səni hiss edib, o maviyə bürünmüş qapına Şəhri-Yar deyib də gəlir. Bədənlərinə dar gələn ruhlarına ruhundan ruh qatasan deyə gəlir, ustad... Sən hiss edirsən, sənə sığınanları... bəlkə də, sən çağırırsan deyə hər kəs sual olaraq gəlib, cavab olaraq dönür.

Görəsən, yarımcan bir çırağın işığını yandıran, gözlərinin odunu töküb neft əvəzinə ocağı odlandıran Kövkəb anamı səni Şəhriyar etdi, yoxsa rişxənd ilə qırcınan səhəri açarkən gözlərinə doldurduğun Süreyyan?! Susma, ustad, susma, nə olar, danış bizimlə! Sən deyildinmi Süreyyanın cənnətinə quş olub da gələn?! Hər kəs səni sevgi şairi olaraq “Behcədabad xatirələri” ilə sevdi. Görəsən, Pəri də belə sevdi, yoxsa o fərqli olaraq Behcədabadın qanatdığı yaraları da sevdimi? Bəs öz qanatdığı yaraları necə? Sevə bildimi o yaraları? “Getdi mənim həyatımı vurdu daşa, çıxdı başa” dediyin Pəri elə həmin Pəri idi ki, xəstə yatağında şama pərvanə olaraq sənə dəfələrlə baş çəkmiş, sənin qeydinə qalmağa başlamış fəqət sənin –

*Gəlmisən canımı almağa, sənə qurban, indi niyə?*
*Düşmüşəm əldən daha, ey bivəfa, indi niyə?*
*Nuşdarusan, amma Söhrab öləndən sonra gəlmisən?*
*Ay daş ürək, bir qədər tez gəlsəydin, indi niyə?*

sözlərinlə sirrə qədəm basmışdı!

İndi evini ümidsizcə isladan göz yaşları, yanar dağa dönən ağrılar, ürək aynasında çata dönənlər yad edir, hər divardan asılmış şəklindən soraqlaşır səni...

“Neçə siqaret yandırıb kül etmişdin Süreyyanın odunda?!

Nə qədər göz yaşlarıyla saymışdın?! Süreyyanın getdiyi günü... göz yaşların bitmədiyi kimi günlər də bitməyəcəkdi...Fəryadında çarəsizliyin lallaşarkən, sevgin saçlarının bəyazından asılmışdı, əllərin qırışarkən nə qədər cığır açmışdı sevgin ömür yoluna?! Son dəfə görmək ümidi ilə gecə boyu gözləyərkən gözlərin alışdı sevginin yuxusuzluğuna, o zamandan bərimi masmavi gözlərin bəyazında gecənin qaranlığında saralıb soldu?! Sən ən gözəl onun qəlbində gizləndin, illər boyu... Zaman keçdikcə məskən saldın orada... axtarıldın, arandın Məhəmmədhüseyn olaraq doğulub, bir gün Şəhriyar olaraq çıxdın meydana... Gecədən zülmət səhərə oyananda oyun bitmişdi, danışdığın hekayənin yolu bitmədiyi üçünmü, Səbanın setarında simə dönüb, yalnızlığında rəqs etmiş?! Nimanın şeirlərində sirləşib, Sadıq Hidayətin “Pəs Qole” şəlaləsində su olub axaraq, intihar edib dəfələrlə ölmüşdün?! İndi necə də sükuta qərq olub, qaranlığın kor səssizliyində lal olubsan, ömürlük yarım qalıb, sərhədləri göz yaşı ilə, nisgili ilə qıra bilməyən, çiyinlərdə Vətən həsrəti ilə, nakam sevgisi ilə məzara daşınan, Vətəndən aralı darda qalıb, şeirlərindən azadlıq tapıb səadətə addımlayan, Azərbaycansız heç olub, Vətənin eşq məktəbində can vermiş şairsən artıq. Ruhdaşları ilə şeirlərdə, kitablarda görüşən, yazdığı hər misra ilə Vətənə qucaq dolusu sevgi, həsrət yağdıran, nəğməkar bülbülü bağından, güllərindən aralı salıb qəlbinə tikan oxu vuran elə həmin ayrılıqsan ki ayrılıqsan! Geriyə buraxdığı hər şeiri, hər gün Şəhriyar olan, Heydərbaba kimi daşlaşıb, dillərdə gəzən elə həmin Şəhriyarsan artıq!!! Öz şəfəqlərini əbədiyyət üfüqlərinə saçıb, öz işığında yanan, batan ulduz doğacaq Günəşsən indi!

Təbriz Şəhriyarsız oğulsuz, yetimdir artıq. Heydərbaba hər gün sənin yerinə səs salır: “Gəl görək, niyə gec qaldın”, – deyir. Biz sənin xəyalımızda daima yaşatdığımız yarım qalan anlıq xoş xatirələrin və ilhamımızı səndən aldığımız nəfəsinlə yaşayırıq. Necə demişdin:

*Hara getsəm, orada hiss edərəm sən varsan,*
*Dönərəm mən küləyə, yolları asan gedərəm.*

Özün deyirdin ki, hər bir can yandıran şeirini bir əzizinin qəlbinə vurduğu dağ bahasına əldə etmisən. Bu dağ basılmış yanıqlı çağların sənə “Behcədabad xatirələri” adlı ölməz əsəri qazandırdı.

Ustad! Yarım qalan taleyində nə ömür yaşadın ki? Bu həştad ilin yarısı gecə oldu – yuxuda, xəyalda keçdi, qalan yarısının yarısı oynamağa – uşaqlıq dövrünün şıltaqlıqlarına, ömrünün gənclik adlanan qalan yarısı həyatı, maddi-cismani ehtiyacları ödəməyə həsr olundu, qalan yarısında qocalıq çağları – bədbəxtlik və çətinlik dövrü başlandı. Ustad, sən bu uzun və mənasız illərdə düşünməyə, yaratmağa, incilər saçmağa macal tapıbsansa, deməli, ömür elə budur, qalanı isə boş xəyaldır.

Şəhriyarsız Təbriz hicrana bürünüb. Özünü acıdan yoğruldub ağrıdan yaradıb. Ömürlük yarım qalan şair, sərhədləri göz yaşı ilə, nisgili ilə qıra bilmədən sonsuz arzularını, saysız diləklərini baxışlarında söndürüb, kiçik tabutuna sığdıraraq, çiyinlərdə Vətən həsrəti ilə, nakam sevgisi ilə məzara daşındı. Vətənindən aralı darda qalıb, şeirlərində azadlıq tapıb səadətə addımladı. Azərbaycansız heç olan şair Vətəninin eşq məktəbində can verdi. O ancaq ruhdaşları ilə şeirlərdə, kitablarda görüşdü. Yazdığı hər misra ilə qucaq dolusu sevgi, həsrət yağdırdı Vətənə. Geridə buraxdığı hər şeir, hər gün Şəhriyar oldu Azərbaycana. Hər gün ümidsizcə Şəhriyarı gözləyən ümid, arzu oldu Vətənə. Yüz min kərə sınansa da, bu ayrılıq elə Vətəndən ayrıldığı həmin ayrılıq idi ki, nəğməkar bülbülü bağından, güllərindən aralı salıb qəlbinə tikan oxu vurdu.

O artıq bu dünyaya əbədiyyət dünyasından nur ətəşi saçıb işıq salır. Onun keçdiyi karvan ayrılığın acı şərbətini içib, bu dünyadan gedər-gəlməz yollarla zülmət qaranlığa gedib. O gedəndən ürəklərimizdə dayanan zaman çoxdan keçib, lakin keçmişimizdən Şəhriyarımız – xəyal meydanımız qalıb. Cismi bu dünyadan köç etsə də, Şəhriyarın eşqi ruhumuzda həmişəlik yaşayır, heç qocalmır, günü-gündən dərinləşib kök salır, damarlarımızda qan olub axır... Şəhriyar yanan ürəklərə “Araz olub” hey axır, axır!!!

**✍ Fariz ƏHMƏDOV**
**Könül SEYİDOVA**

*Azərbaycanda professional musiqi təhsilinin təşəkkülü dahi Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə yaradılmış ali təhsil ocağı olan Azərbaycan Dövlət Konservatoriyasında milli alətlərlə yanaşı, müxtəlif ixtisaslar üzrə Avropa musiqi alətləri öyrədilən kadrlar hazırlanırdı. Bu sırada pianoçuluq məktəbi sahəsində yüksək yaradıcılıq nailiyyətlərinin özünəməxsus yeri vardır.*

# Tanınmış pedaqoq, istedadlı ifaçı



Qeyd edək ki, Naxçıvanda da piano ifaçılığı mədəniyyətinin təşəkkülü və inkişafı diqqət mərkəzinə gətirilmişdir. Qədim diyarımızda bu sahənin əsasını qoyanlardan biri isə istedadlı pianoçu, pedaqoq, Azərbaycan Respublikasının Əməkdar müəllimi Solmaz Axundovadır. O, yüksək musiqi mədəniyyətinə, zəngin estetik zövqə və yetkin ifaçılıq məharətinə malik bir sənətkardır. Qeyd edək ki, keçmiş sovetlər dövründə Avropa musiqi alətləri sahəsində çalışan kadrların əksəriyyətini SSRİ-nin müxtəlif respublikalarından olan millətlərin nümayəndələri və müəyyən bir müddət ərzində təyinatla gəlib işləyən müəllimlər təşkil edirdi. Solmaz Axundova isə Naxçıvanda bu sahə üzrə ali professional musiqi təhsili almış ilk pianoçulardan olmuş və bu sahənin inkişafında mühüm xidmətlər göstərmişdir.

Solmaz Axundova 1953-cü il sentyabr ayının 16-da Naxçıvan şəhərində ziyalı ailəsində anadan olub. Axundovlar ailəsi Naxçıvanda seçilən-seçilən, hörmət və nüfuza malik ailələrdəndir. Bu ailənin bütün üzvləri Azərbaycan musiqi mədəniyyətinə böyük töhfələr bəxş etmiş sənətkarlardır. Ona görə də Solmaz Axundovanın böyüdüyü ailəyə musiqiçilər ailəsi də demək olar. Belə ki, qardaşları – Azərbaycan musiqisini Vətəndən uzaqlarda, Moskva şəhərində şərəflə təbliğ edən Azərbaycan Respublikasının Əməkdar artisti Qorxmaz Axundov, Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundov, hazırda Bakı şəhərində yaşayan bacısı Almaz Axundova isə Naxçıvanda skripka məktəbinin əsasını qoymuş pedaqoqdur.

İlk musiqi təhsilini Naxçıvan şəhərində uşaq musiqi məktəbində fortepiano ixtisası üzrə alan Solmazın istedadı məhz o illərdə üzə çıxır. Onun müəllimləri Q.Karant və S.Andin olmuşdur. Müəllimlərinin rəhbərliyi altında o, bu alətin sirlərinə dərindən yiyələnir, ən çətin əsərləri məharətlə ifa edirdi. Fortepiano alətinə olan sevgisi 1969-cu ildə Solmazı Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna gətirir. Buradakı tələbəlik illərindən yaddaqalan əziz xatirə musiqi ocağının tədbirlərində fəal iştirakı və tez-tez dinləyicilər qarşısında uğurlu konsertlərlə çıxış etməsidir. Xüsusilə həmin illərdən danışarkən Solmaz xanım son dərəcə tələbkar, səmimi, dərin biliyə malik sevimli müəllimi Diana Zəkiyevanın onun həyatındakı rolunu, pianoçu kimi yetişməsindəki səylərini böyük hörmətlə xatırlayır, həmin dövrü həyatının ən yaddaqalan illəri hesab edir. 1973-cü ildə Solmaz Axundova texnikumu fərqlənmə diplomu ilə başa vuraraq təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) Fortepiano ixtisası üzrə İfaçılıq fakültəsində davam etdirir. Konservatoriyada onun müəllimi daim hörmətlə xatırladığı Tamella Qasımova olmuşdur.

Solmaz Axundova əmək fəaliyyətinə 1983-cü ildə doğma şəhərində, Ü.Hacıbəyli adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbində (İndiki Musiqi Kolleci) başlayır. Burada o, bir çox istedadlı pianoçuların yetişməsi üçün böyük əmək sərf edib. 1999-cu ildən isə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Fortepiano kafedrasında pedaqoji fəaliyyət göstərir və hazırda həmin kafedranın dosentidir.

Bir müəllim kimi Solmaz Axundova böyük nüfuza sahibdir. O, sinfində təhsil almış müxtəlif yaradıcılıq səviyyəsinə malik, özünəməxsus bədii keyfiyyətləri ilə seçilən tələbələri ilə bu gün qürur duyur. Mütəmadi olaraq keçirdiyi tematik açıq sinif konsertləri və burada ifa edilən İ.S.Baxın, D.Şostakoviçin, R.Şumanın, F.Şopenin, S.Raxmaninovun, L.V.Bethovenin əsərlərinin böyük ustalıqla ifa olunması Fortepiano ixtisasına gənclərin marağını xeyli artırır.

Pedaqoji fəaliyyətilə yanaşı, Solmaz Axundovanın ifaçılıq fəaliyyəti də diqqətəlayiqdir. Bir ifaçı kimi onun repertuarı öz rəngarəngliyi ilə seçilir. Bura L.V.Bethoven, F.Şopen, E.Qriq, Q.Qarayev, F.Əmirov kimi görkəmli bəstəkarların əsərləri daxildir. Naxçıvanda fortepiano və simfonik orkestr üçün Norveç bəstəkarı E.Qriqin məşhur a-moll konsertinin ilk milli ifaçısı məhz Solmaz Axundova olmuşdur. Onun hələ musiqi məktəbində oxuduğu illərdən başlayan bir çox dövlət konsertlərindəki çıxışları dinləyicilər tərəfindən alqışlarla qarşılanmışdır.

Onun elmi fəaliyyəti də diqqətəlayiqdir. Solmaz Axundova “Naxçıvan bəstəkarlarının əsərləri” dərsliyinin, “Fortepianoda çalmaq üçün” dərs vəsaitinin, musiqinin müxtəlif sahələrinə aid 20-dən çox elmi məqalənin, metodik vəsaitin, Fortepiano ixtisası üzrə proqramın müəllifidir. “Naxçıvan bəstəkarlarının əsərləri” dərsliyinə tanınmış naxçıvanlı bəstəkarların müxtəlif səpkili əsərləri daxil edilmişdir.

Solmaz Axundovanın musiqi mədəniyyəti sahəsindəki səmərəli fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. 2012-ci ildə “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi”, 2016-cı ildə isə “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülüb. Bu şərəfli adları layiqincə daşıyan Solmaz Axundova hazırda da öz bilik və bacarığını həvəslə, yorulmadan gənc tələbələrinə öyrədir. Böyük sənətkar bu il ömrünün 70-ci ilinə qədəm qoyur. Bu münasibətlə Solmaz xanımı ürəkdən təbrik edir və ona cansağlığı, yaradıcılığında yeni-yeni uğurlar arzu edirik.

**Rüxsarə HÜSEYNOVA**
***musiqişünas, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

### İtmişdir

Şərur rayonunun Zeyvə kənd sakini Rzayev Pünhan Həsən oğlunun adına olan JN-375 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Məzrə kəndində yaşamış Muradov Məmmədbağır Bayraməli oğlunun adına olan JN-160A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

www.serqqapisi.gov.az

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 543